# Bizim Mehriban!

Azərbaycan xalqının mental dəyərlərindən, dünyagörüşündən edilən yaxşılığı, əməl-saleh işləri yüksək dəyərləndirmək qırmızı xətt kimi keçir. İnsanlar onlara göstərilən xoş münasibəti, qayğı və diqqəti minnətdarlıq hissi ilə qəbul edir və bunu heç vaxt unutmurlar. Bu mənada xalqımızın - yaşlı nəslin də, gənclərin də, uşaq və yeniyetmələrin də Azərbaycanın Birinci vitse-prezidenti, Cənubi Qafqaz coğrafiyasının ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevaya “Bizim Mehriban” deyə müraciət etmələri təsadüfi deyil. “Mehriban” adını daşıyan birinci xanım həyatda, başqaları ilə ünsiyyətdə də mehribandır, uşaqlara, həssas qruplardan olan insanlara münasibətdə xüsusi qayğı, nəvaziş nümayiş etdirir. Biz onun timsalında zərif , xeyirxah, eyni zamanda məqsədləri uğrunda fədakarlıqlar göstərən Azərbaycan qadınlarının ümumiləşmiş obrazını görürük. Ənənəvi olaraq belə bir qənaət formalaşıb ki, birinci xanımlar bütün qayğılardan uzaqdırlar və onlarla sıravi insanlar arasında keçilməz “Çin sədləri” var. Birinci xanım Mehriban Əliyevanın timsalında isə biz ənənəvi təsəvvürlərdən uzaq olan tamam fərqli bir mənzərənin şahidi oluruq. O, heç bir halda özünü cəmiyyətdən ayırmır, daim ziyalılarla, sıravi vətəndaşlarla, gənclərlə, könüllülərlə, uşaqlarla ünsiyyətə can atır. Aydın şəkildə hiss olunur ki, o məhz belə məqamlarda özünü xoşbəxt sanır. Biz artıq öyrəşmişik: Harada ki, çətinliklər var, nə zaman ki, milli mədəniyyətimizə qayğı tələb olunur, kiminsə haqqı tapdalanır, Azərbaycanın haqq səsini dünyada ucaltmaq lazımdır...məhz belə yerlərdə və həssas məqamlarda biz birinci xanım Mehriban Əliyevanı görürük. O, operativ qaydada köməyə çatması, təsəlli verməsi, arxa-dayaq durması ilə milyonların narahatlığına son qoyur. Mehriban xanımı mənən ölkə vətəndaşlarına yaxınlaşdıran, insanların sevimlisinə çevirən onun xarakterinin üstün keyfiyyətləri, şəcərədən gələn kübarlığı və əlbəttə ki, çoxşaxəli fəaliyyətidir. Mehriban xanım Əliyeva Azərbaycanda birinci xanım institutunun orijinal və çox funksional bir modelini formalaşdırmağa nail olub.

